# Litva ictimai baxışlarında Azərbaycan - diaspor problemi, lobbi problemi, ya... təxribat...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Azərbaycanın dünyada aktiv təbliğatını aparmaq bir sıra qurumların üzərinə düşür. Onlar istəsələr də, bundan boyun qaçıra bilməzlər. İlk növbədə Azərbaycanın təmsil olunduğu ölkələrdəki səfirlikləri fəal olmalıdır. Bununla yanaşı, həmin ölkələrdəki diaspor təmsilçilərimiz fəallıq göstərməlidir.**

Ancaq qeyd edək ki, bu həmin diaspor təşkilatlarının üzərinə düşən ictimai bir vəzifədir. Onların bu yöndəki effektiv fəaliyyəti Diaspor Komitəsi və səfirliklərimiz tərəfindən koordinasiya edilməlidir. Təəssüf ki, bəzən bunun ürəyimiz istədiyi kimi olmadığını görürük. Konkret misala keçək.

### Litva cəmiyyəti indiyə qədər Qarabağ həqiqətlərindən xəbərsizdir...

Litvalı jurnalist, publisist Gintaras Visotskas "Caliber" analitik mərkəzinə müsahibəsində deyib ki, litvalıların böyük əksəriyyəti elə bilir "Daşnaksütyun", "Hnçak", ASALA "Azərbaycan terror təşkilatları"dır. "…Litvalılardan "Daşnaksütyun", ASALA və ya "Hnçak" nədir deyə soruşsanız, çox vaxt cavab olaraq eşidəcəksiniz ki, bunlar "Azərbaycan terror təşkilatlarıdır". Təbii, heç də bütün litvalılar bilmir ki, Ermənistanda hələ də Rusiya hərbi bazası var və erməni hərbi təlimatçıları bu il Litva sərhədində keçirilən "Qərb-2021" Rusiya-Belarus təlimlərində iştirak ediblər. Yalnız mənim portalımda Ermənistan-Azərbaycan münasibətlərinə dair məqalələr tapa bilərsiniz.

Litvada təkcə Ermənistanın deyil, Azərbaycanın da xeyrinə arqumentlər verən bir neçə kitab nəşr olunub. Bu, tarixçi Algimantas Lekisin "XX əsrdə Qafqazda xalqların köçü" əsəridir. Bir də "Qara bağın faciəsi" və "Qara bağın işi" məqalə toplularım…" - deyə litvalı jurnalist, publisist Gintaras Visotskas bildirib.

G.Visotskas da başqaları kimi bunun səbəbini erməni saxta təbliğat maşınının gecə-gündüz dayanmadan işləməsi ilə bağlayır. Bəli, ermənilər özlərinin terror təşkilatlarının Azərbaycana aid olduğuna dair yalan təbliğat aparır və bizim əleyhimizə kifayət qədər işlər görürlər. Ermənilərin bizə qarşı təbliğatının motivi bizə aydındır, informasiya savaşında bu, düşməndən gözlənilən haldır. Düşmən əlindəki bütün vasitələrdən bizə qarşı istifadə etmək üçün illərdir ki, dayanmadan fəaliyyət göstərir və günü-gündən fəaliyyətini daha da gücləndirir. Düşmən öz düşmənçiliyini harada olsa göstərir. Bəs Azərbaycanın Litvadaki səfirliyi, şəxsən səfir nə işə baxıb ki, Litva cəmiyyətinin Azərbaycan haqqında normal təsəvvürü yaranmayıb və çoxluq erməni terror təşkilatlarını "Azərbaycanın terror təşkilatları" sayır? Səfir orada erməni təbliğatına qarşı heç bir tədbir görə bilmir ki, Ermənistanla Litva arasında dostluq, əməkdaşlıq sürətlə irəliləyir. Bəs diaspor qurumlarımız? Onlar da səfirliyimiz kimi bir-iki tədbir keçirməklə işlərini bitmiş sayıblar? Litva cəmiyyəti indiyə qədər Qarabağ həqiqətlərini bilmir. Əlbəttə, bunun günahı yenə də səfirliyin boynundadır ki, heç bir iş görmür. Azərbaycanın Litvadakı səfirliyinin də Azərbaycanı təbliğ etməkdən başqa hər işlə məşğul olduğu aşkar ortadadır…

### Jurnalist hardan bilir ki, Litvada mütləq əksəriyyət bu fikirdədir?

"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev öz Feysbuk hesabında məsələ ilə bağlı maraqlı yanaşma ortaya qoyub: "İllər boyu Litvada işləmiş səfirlərimizin, Diaspor Komitəsinin heç günahı yoxdur? Litvalılar kimi məlumatlı toplum belə səhvə yol verə bilərmi? Bir Litva jurnalisti Azərbaycan resurslarına müsahibə verib ki, Litva cəmiyyətinin əksəriyyəti "Hnçak", "ASALA" və "Daşnaksütyun"u Azərbaycanın terror təşkilatları sayır. Bizim bəzi düşüncə sahiblərimiz isə burada birmənalı olaraq erməniləri qınamağa başlayıb. Doğrudur, işlər başı ermənilərdir. Ancaq bu məsələdə tək ermənini "qovmaqla" hara getmək olar? Erməni düşməndir, məlum, o çalışacaq ki, özünün bütün qəbahətlərini ya dansın, ya ört-basdır etsin, ya da Azərbaycanın adına yazsın.



Bəs bizim illərlə Litvada fəaliyyət göstərmiş səfirlərimizin, səfirliyimizin, Diaspor Komitəsinin heç bir günahı yoxdur? Bəlkə günahların ən böyüyü elə məhz bunlardadır?

Bəlkə həmin Litva jurnalisti təxribat aparır? Jurnalist hardan bilir ki, Litvada mütləq əksəriyyət bu fikirdədir? O ümumölkə miqyaslı rəy sorğusu aparıb? Görürsünüz, nə qədər suallar çıxdı?

Mən isə inanmıram ki, Litva kimi müasir, fəal, tarixən təşəbbüskar, məlumatlı və yaradıcı bir cəmiyyətdə mütləq əksəriyyət ASALA-nın və digər qaniçən qurumların kimə aid olduğunu bilməsin və səhv etsin".

### Xarici ölkələrin çoxunda diaspor təşkilatlarımız erməni təbliğatı ilə deyil, bir-biri ilə mübarizə aparır...

Beynəlxalq Diaspor Mərkəzinin (BDM) rəhbəri İsmayıl Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, məsələyə müxtəlif rakurslardan yanaşmaq olar: "Əvvala qeyd edim ki, yalnız Litvada deyil, bütün ölkələrlə bağlı Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, səfirliklərimizin və diaspor təşkilatlarımızın işi qənaətbəxş deyil. Əksər ölkələrdə səfirliklərimizlə diaspor təşkilatlarımız arasında dərin ziddiyyət var. Xarici ölkələrin çoxunda diaspor təçkilatlarımız erməni təbliğatı ilə deyil, özləri bir-biri ilə mübarizə aparırlar. Bu da Diaspor Komitəsinin işi düzgün nizamlaya bilməməsindən qaynaqlanır. Baltikyanı ölkələrin bizə münasibəti hər zaman normal olub. Yəni onların erməniyə təəssüb çəkmək kimi məcburi öhdəliyi yoxdur. Bundan əlavə, bir qədər soyuqqanlı olan həmin millətlər məxsusi olaraq deyilən məsələni araşdırmaqda da maraqlı deyillər. Bunun üçün aktiv təbliğat lazımdır ki, beyinlərə yerisin. Görünür ki, ermənilər həmin ölkədə bizi qabaqlayırlar. Ancaq elə bir indikator da yoxdur ki, sadə vətəndaşların nə düşündüyünü müəyyən etsin. Siyasi aktiv olmayan vətəndaş heç öz ölkəsində baş verənlərə maraq göstərmir. Bu baxımdan maraqlıdır, litvalı jurnalist vətəbdaşlarının erməni terror təşkilatları ilə bağlı "qənaətini" nəyə əsasən bölüşür? Aydın şəkildə görünür ki, həmin jurnalist hər iki ölkənin diqqətini özünə cəlb etmək istəyir. Bir qədər də mövzu ilə spekulyasiya edir. Ancaq bu o anlama gəlmir ki, biz diasporumuzun və ya həmin ölkədəki səfirliyimizin fəaliyyətindən razıyıq. Bir çox hallarda Diaspor Komitəsi ilə təşkilatlar arasındakı münasibətlər formalizmdən o tərəfə keçmir. Elə tədbirlər keçirilir ki, orada yalnız fotolar yadda qalır. Heç bir faydalı iş əmsalı görmürük. Litva ilə bağlı isə fəaliyyət ümumiyyətlə zəifdir. Həmin ölkədə azərbaycanlıların da sayı azdır. Ona görə disporumuzun nəticələri ürəkaçan deyil. Ancaq səfirliyimiz bu yöndə mütləq iş aparmalı, həmin ölkəyə erməni terror təşkilatlatını yaxşı tanıtmalıdır".

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**